1_Layout 1 01.06.2025 23:31 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 12 (700)

1 iyul 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## 107 YAŞLI AZƏRBAYCAN ORDUSU - HAQQ SAVAŞININ QALİBİ



Qüdrətli Azərbaycanın Qalib və Şanlı Ordusunun yaranmasından 107 il ötdü. Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə formalaşdırılmış Azərbaycan Silahlı Qüvvələrinin bir əsrdən artıq ötən tarixinin ən pik nöqtəsində Vətən müharibəsində qazanılmış möhtəşəm Qarabağ Zəfəri dayanır. Qəhrəman zabit və əsgərlərimiz Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə cəmi 44 gündə 30 illik işğala və uydurulmuş miflərə son qoyaraq Azərbaycanı qalib ölkəyə çevirdilər.

2023-cü ilin sentyabrında Qarabağda keçirilmiş və 24 saat tamam olmadan düşmənin ağ bayraq qaldırmağa məcbur olduğu lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa olundu. Bütün bunlar göstərir ki, Azərbaycan Ordusu istənilən vaxt qarşıya qoyulan bütün döyüş tapşırıqlarını icra etməyə qadirdir.

Hazırda Silahlı Qüvvələrin modernləşməsi istiqamətində aparılan genişmiqyaslı islahatlar sayəsində ordumuzun gücü və peşəkarlığı artmaqda davam edir.

### Azərbaycan Ordusunun şanlı tarixi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır

1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissə - əlahiddə Azərbaycan korpusu yaradıldı və həmin il avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis olundu. Görkəmli hərbi xadimlər - Xosrov bəy Sultanov, Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski Milli Ordumuzun formalaşmasında və döyüş qabiliyyətinin yüksəldilməsində əvəzsiz xidmətlər göstərdilər.

Müasir Milli Ordunun şərəfli tarixi isə dahi və uzaqgörən siyasətçi, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Tarixə nəzər salsaq, görərik ki, Ulu Öndər hələ sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə milli zabit kadrların yetişdirilməsini prioritet hesab edirdi. Hələ 1971-ci il iyunun 20-də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin yaradılmasına nail olundu. Ulu Öndər Heydər Əliyev azərbaycanlı gəncləri SSRİ-nin qabaqcıl hərbi məktəblərinə təhsil almağa göndərirdi. Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetişdirdiyi milli zabit kadrlarımızın müstəsna rolu olub. Onlar istər Aprel döyüşlərində, istərsə də Vətən müharibəsində və Qarabağda keçirilən antiterror tədbirlərində əldə edilən uğurların əsas pay sahiblərindəndirlər.

Çətin dönəmə və qeyri-bərabər döyüş şəraitinə baxmayaraq, Azərbaycan Ordusu 1994-cü ilin yanvarında keçirdiyi Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun 20 kəndini, Horadiz qəsəbəsini və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini işğaldan azad etdi. Ulu Öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, 26 İyun - Silahlı Qüvvələr Günü elan olundu.

### Prezident İlham Əliyevin güclü dövlət - güclü ordu strategiyası

Prezident İlham Əliyevin hakimiyyəti dövründə isə ordu quruculuğu prosesi keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, ordumuzun ən müasir silah və texnika ilə təchizatı istiqamətində görülən təxirəsalınmaz təbirlər Azərbaycan Silahlı Qüvvələrini regionun ən qüdrətli ordusuna çevirdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən güclü dövlət – güclü ordu strategiyası, ilk növbədə, torpaqlarımızın düşmən tapdağından xilas edilməsinə, ərazi bütövlüyümüzün təmin olunmasına yönəlmişdi. Həmin məqsədlə hər il dövlət büdcəsində müdafiə xərclərinə böyük vəsait ayrıldı, ölkənin müdafiə sənayesi yaradıldı. Modernləşdirilən Azərbaycan Ordusunun qüdrəti bu gün beynəlxalq səviyyədə etiraf edilir. Silahlı Qüvvələrimiz hazırda dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşıb.

Azərbaycan Ordusunun artan hərbi qüdrəti 2011-ci il iyunun 26-da Bakıda Ali Baş Komandan İlham Əliyevin iştirakı ilə Silahlı Qüvvələr Günü və müstəqilliyin bərpasının 20 illiyi münasibətilə keçirilən hərbi paradda əyani nümayiş etdirildi. Rəşadətli Ordumuz 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin mayında Günnüt zəfəri ilə uğurlu əməliyyatlara imza atdı. Həmin nailiyyətlərin davamı olaraq bir neçə ildən sonra üçrəngli bayrağımız Şuşa və Xankəndi zirvəsinə sancıldı.

### XXI əsrin müharibəsi: 44 günlük haqq savaşımız

Dövlətimizin başçısının uğurlu siyasəti xalqımızın səbirsizliklə gözlədiyi Qələbə gününə addım-addım yaxınlaşdırırdı. Nəhayət, 2020-ci il sentyabrın 27-də düşmən təxribatına cavab olaraq Azərbaycan Ordusunun Zəfərlə nəticələnən haqq yürüşü başladı. Silahlı Qüvvələrimiz 44 gündə düşmənə sarsıdıcı zərbələr vuraraq 5 şəhəri, 4 qəsəbəni və 300-dək kəndi işğaldan azad etdi. Ordumuzun qarşısında cəmi 44 gün tab gətirən Ermənistan kapitulyasiyası aktını imzalamağa və məğlubiyyəti qəbul etməyə məcbur oldu. Hərb tariximizə qızıl hərflərlə yazılan Qarabağ Zəfəri xalqımızı həsrətində olduğu cənnət guşələrimizə qovuşdurdu.

Bakının Azadlıq meydanında 2020-ci il dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilmiş möhtəşəm Zəfər paradı 44 günlük şanlı Vətən müharibəsində qazanılan Qələbə sevincinin və qürurunun parlaq göstəricisi olmaqla yanaşı, Azərbaycan Ordusunun hərbi qüdrətinin bütün dünyaya növbəti nümayişi oldu.

Azərbaycan Ordusu Vətən müharibəsi zamanı 2 min 900-dən çox əsgər və zabitini şəhid verdi. Bu şanlı Qələbəni xalqımıza yaşatmış Rəşadətli Ordumuzun qəhrəmanlığını yüksək qiymətləndirən dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev imzaladığı sərəncamlara əsasən, ərazi bütövlüyümüzün bərpasında iştirak etmiş hərbi qulluqçularımızı müxtəlif orden və medallarla təltif edib.

### Qarabağ Zəfərinin məntiqi yekunu – lokal xarakterli antiterror tədbirləri

Vətən müharibəsində ağır məğlubiyyətə uğramasına baxmayaraq, Ermənistan Azərbaycana qarşı hərbi təxribatlarını davam etdirirdi. Bunun qarşısını almaq üçün 2023-cü il sentyabrın 19-20-də hərb tariximizin daha bir parlaq səhifəsini təşkil edən uğurlu lokal xarakterli antiterror tədbirləri həyata keçirildi. Ordumuz bu dəfə də yüksək peşəkarlıq və qətiyyət nümayiş etdirərək cəmi 23 saat 43 dəqiqəyə Qarabağda qanunsuz silahlı birləşmələrin, terrorçuların və separatçı rejimin mövcudluğuna son qoydu.

Beləliklə, Ali Baş Komandanın uzaqgörən siyasəti, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi tam təmin edildi.

### Ordu quruculuğu və hərbi potensialımızın gücləndirilməsi tədbirləri davam edir

İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə Azərbaycan Ordusunun daha da gücləndirilməsi istiqamətində davamlı addımlar atılır, yeni silah və texnikalar alınır və bu sahəyə lazımi qədər dövlət vəsaiti ayrılır. Silahlı Qüvvələrimizin türk ordu modelinə keçidi, komando bölmələrinin yaradılması prioritet istiqamətdir və həmin məqsədlə həyata keçirilən tədbirlər öz bəhrəsini verir. Silahlı Qüvvələrimiz öz döyüş qabiliyyətini əhəmiyyətli dərəcədə artırmaqda davam edir. Əminliklə demək olar ki, bugünkü Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş ordumuzdan daha da güclüdür.

Azərbaycanda yerli və beynəlxalq səviyyəli təlimlər təşkil olunur. Bu ilin birinci yarısında Azərbaycan Ordusunda hərbi qulluqçuların peşəkarlığının artırılması, döyüş hazırlığının daha da yüksəldilməsi məqsədilə planauyğun təlim və məşq toplanışları təşkil edilib. Hesabat dövründə Azərbaycan və müxtəlif dövlətlərin iştirakı ilə ümumilikdə 14 birgə beynəlxalq təlim keçirilib. Təlimlərə cəlb edilən hərbi qulluqçular öz funksional vəzifələrinin faktiki icrasında təcrübə qazanır, bilik və bacarıqlarını təkmilləşdirirlər.

Bu gün Azərbaycan Ordusunun hərbi qulluqçuları öz bayramlarını Şanlı Zəfərin 5-ci ildönümünün təntənəsində qeyd edirlər. Əminik ki, Silahlı Qüvvələrimizin peşəkar və cəsur döyüşçüləri bundan sonra da ayıq-sayıqlığı itirməyəcək və üçrəngli bayrağımızın dalğalandığı hər nöqtədə Vətənə ləyaqətlə xidmət edəcəklər. Bizə Qələbə bəxş edən Silahlı Qüvvələrimizin 107-ci ildönümünü təbrik edir, uğurların və qələbələrin davamlı olmasını diləyirik.

**AZƏRTAC-ın materialları əsasında hazırlanıb.**

## Daxili işlər naziri Vilayət Eyvazov gürcüstanlı həmkarı ilə görüşüb







Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Gürcüstanın daxili işlər naziri Gela Geladze ölkəmizə rəsmi səfərə gəlib.

İyunun 13-də cənab Gela Geladze və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar.

Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri Vilayət Eyvazov Gürcüstanın daxili işlər naziri Gela Geladzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan V.Eyvazov daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə Gela Geladzeni təbrik edərək bu səfərin əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə edib. O, xalqlarımız arasındakı dostluğun qədim tarixə malik olduğunu, dövlətlərimiz arasındakı əlaqələrin hər zaman strateji tərəfdaşlıq xarakteri daşıdığını xatırladaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan rəhbərliyinin ikitərəfli əlaqələrin daha da genişləndirilməsinə xüsusi önəm verdiklərini qeyd edib. Cənab Vilayət Eyvazov bu münasibətlərin ölkə başçılarının siyasi iradəsinə uyğun uğurla inkişaf etdiyini, dövlət və hökumət rəhbərlərinin qarşılıqlı səfərləri nəticəsində daha da dərinləşdiyini bildirib.

Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın, xüsusilə də transmilli cinayətkarlığın bütün növləri ilə, o cümlədən kibercinayətkarlıqla mübarizə sahəsində birgə əlaqələrin, təcrübə və informasiya mübadiləsinin və yaradılmış normativ-hüquqi bazanın ilk növbədə dost və qardaş xalqlarımızın mənafelərinə, bölgədə təhlükəsizliyin təmini işinə xidmət etdiyi nəzərə çatdırılıb.

Problemlərə toxunularkən narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri və qanunsuz miqrasiya, kibercinayətkarlıqla mübarizənin daim diqqət mərkəzində dayandığı, onlara qarşı səmərəli mübarizənin yalnız birgə səylərlə mümkünlüyü qeyd olunub.

Səmimilik və işgüzarlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər barəsində də ətraflı fikir mübadiləsi aparılıb.

Cənab Gela Geladze səmimi qəbula, ətraflı məlumata və göstərilən qonaqpərvərliyə görə təşəkkür edib, mehriban qonşu və yaxın dost olan Azərbaycanın daxili işlər orqanları ilə ölkəsinin müvafiq qurumları arasında əlaqələrin bundan sonra daha da inkişaf etdirilməsində maraqlı olduqlarını, bunun üçün gələcəkdə də səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə Gürcüstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze iştirak edib.

**DİN-in Mətbuat xidməti**

# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN HƏRBİ İNSTİTUTUNDA NÖVBƏTİ BURAXILIŞ OLUB

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunda 2024-2025-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.



Tədbirdə respublikanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçən hərbi qulluqçuların və polis əməkdaşlarının əziz xatirəsi yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Məzunların buraxılış mərasiminin Hərbi İnstitutun həyatında əlamətdar hadisələrdən biri olduğunu diqqətə



çatdıran nazir müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov təhsil müəssisəsinin inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.

Nazir Vilayət Eyvazov Daxili İşlər Nazirliyinin əsas struktur qurumlarından olan Daxili Qoşunların yarandığı gündən şərəfli xidmət yolu keçdiyini vurğulayıb, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə, ölkədə sabitliyin, ictimai təhlükəsizliyin təmin olunmasında onun mühüm rol oynadığını diqqətə çatdırıb. O, Daxili Qoşunların döyüş hazırlığının yüksəldilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən hər zaman nəzarətdə saxlanıldığını, müasir silah və texnika ilə təminatı, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsi sahəsində bir çox vacib qərarların qəbul edildiyini vurğulayıb, xüsusi diqqət və qayğının nəticəsi olaraq Daxili Qoşunların qarşıya qoyulan istənilən döyüş tapşırığını layiqincə yerinə yetirməyə qadir olduğunu bildirib.



General-polkovnik V.Eyvazov Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbə ilə nəticələnən Vətən müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının ön cəbhədə qəhrəmanlıq və vətənpərvərlik nümunələri göstərdiyini, onların arasında Hərbi İnstitutun məzunlarının da olmasını bu təhsil müəssisəsində kursantların dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda formalaşmasında əzmkar fəaliyyətin əyani təsdiqi kimi dəyərləndirib.

Daxili Qoşunların Hərbi İnstitutunun bu gün öz təyinatına uyğun olaraq qoşunlar üçün yüksək ixtisaslı, peşəkar zabit heyətinin hazırlanması ilə bağlı çox böyük işlər gördüyünü, bu mühüm vəzifənin gələcəkdə də layiqincə yerinə yetiriləcəyinə əminliyini ifadə edib.



Daxili işlər naziri qoşunların peşəkar kadr özəyinin formalaşmasında, şəxsi heyətin döyüş hazırlığında yüksək nəticələr əldə etdiyinə görə Türkiyə Silahlı Qüvvələrinin, o cümlədən Jandarm Baş Komandanlığının roluna xüsusi diqqət çəkib.

Qeyd olunub ki, məzunların həyatında yeni bir dövr başlayır. Bu təhsil ocağında komandir peşəsinə yiyələnməklə liderlik, cəsurluq, fədakarlıq, dürüstlük kimi keyfiyyətlər qazanan, peşələrini sevən, müasir düşüncəyə sahib gənc zabitlər artıq hazırlıqlı və peşəkar hərbçilər kimi Daxili Qoşunların sıralarında xidmətlərini uğurla davam etdirəcək, qoşunların döyüş ənənələrinə sadiq qalacaqlar.



Nazir V.Eyvazov gənc zabitləri, onların valideynlərini və yaxınlarını Hərbi İnstitutu uğurla bitirmələri münasibətilə təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil ocağının rəhbərliyinə, zabit-müəllim heyətinə təşəkkürünü bildirib, fəaliyyətlərində uğurlar arzulayıb.

Gənc zabit Çingiz Cəfərli onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına, DİN rəhbərliyinə və Hərbi İnstitutun zabit-müəllim heyətinə minnətdarlığını çatdırıb, gələcəkdə peşəkar zabit olacaqlarını, Vətən, dövlət və xalq qarşısında vəzifələrini layiqincə yerinə yetirəcəklərini, hərbçi şərəfini hər zaman uca tutacaqlarını bildirib.



Sonra Döyüş Bayrağı üçüncü kursun kursantlarına təhvil verilib. Gənc zabit Kamil İsmayılov "Yaş kötüyü"nə rəmzi xatirə lövhəsini vurub.

Tədbirin sonunda daxili işlər naziri Hərbi İnstitutu fərqlənmə və "baş leytenant" rütbəsi ilə bitirmiş məzunlara diplomları təqdim edib.

Sonda gənc zabitlər təntənəli marşla tribunanın qarşısından keçiblər.

**DİN-in Mətbuat xidməti**

# XÜSUSİ TƏYİNATLI DƏSTƏLƏR ARASINDA YARIŞLAR KEÇİRİLİB





İyunun 9-dan 13-nə kimi Daxili Qoşunların hərbi hissələrinin xüsusi təyinatlı dəstələrinin şəxsi heyəti ilə xüsusi-taktiki hazırlıq üzrə yarışlar keçirilib. Bu barədə məlumat verən Daxili Qoşunların Baş İdarəsinin qərargahının əməliyyat və döyüş hazırlığı idarəsinin döyüş hazırlığı şöbəsinin rəisi polkovnik Aydın Zahidov yarışlara Daxili Qoşunların 99713, 67987, 17071, 17074, 16077, 12318, 16073, 17072 və 16075 saylı hərbi hissələrinin xüsusi təyinatlı dəstələrinin şəxsi heyətinin cəlb olunduğunu nəzərimizə çatdırıb. Ümumilikdə 63 nəfər hərbi qulluqçunun iştirak etdiyi yarışlar zamanı yüksək mənəvi-psixoloji dayanıqlıq, fiziki dözümlülük, taktiki məharət və birincilik uğrunda mübarizə əzmi nümayiş etdirilib, heç bir pozuntu halına yol verilməyib.



Polkovnik A.Zahidov qeyd edib ki, xüsusi təyinatlı dəstələrin hərbi qulluqçuları arasında yarışın proqramına uyğun olaraq, xüsusi-taktiki hazırlıq, fiziki hazırlıq, atəş hazırlığı, hərbi dağçılıq, hərbi topoqrafiya, eləcə də istehkamçılar tərəfindən imitasiya vasitələrindən istifadə edərək partlayıcı vasitələrin quraşdırılması, xüsusi tapşırıqların icrası üzrə komanda üzvlərinin, komandaların praktiki vərdişləri yoxlanılıb və müvafiq qaydada qiymətləndirilib.

Keçirilən yarışların nəticələrinə görə 99713 saylı hərbi hissənin komandası ən yüksək bal toplayaraq birinciliyi qazanıb. 16077 və 16075 saylı hərbi hissələrin komandaları isə müvafiq olaraq ikinci və üçüncü yerlərə layiq görülüblər.



Sonda yüksək nəticələr əldə edən bölmələr müvafiq dərəcəli diplomlarla mükafatlandırılıblar.

**Mətbuat xidməti**

# ƏZMKARLIĞI VƏ SAYIQLIĞI İLƏ FƏRQLƏNƏN BÖLÜK

İstənilən hava şəraitində xidmətin ayıq-sayıq aparılması hərbi qulluqçudan möhkəm iradə, dözümlülük və böyük məsuliyyət tələb edir. Sadalanan bu və digər müsbət keyfiyyətləri 17074 saylı hərbi hissənin komendant bölüyünün hərbi qulluqçularının hər birində görmək olar.



Bölük komandiri baş leytenant Elnur Quliyev söylədi ki, hərbi hissənin döyüş bayrağının və digər obyektlərin etibarlı mühafizəsi və müdafiəsi bölüyün fəaliyyətinin əsasını təşkil edir. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Hərbi qulluqçuların sağlamlıqlarını, mənəvi-psixoloji durumlarını əsas şərt kimi dəyərləndirən baş leytenant E.Quliyev digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi. Keçirilən məşğələlərin şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına təkan verdiyini nəzərimizə çatdırdı.

Xidmətə cəlb edilənədək bölük komandiri və onun tərbiyə işləri üzrə müavini tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır. Bununla yanaşı, hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Qarovulun xidmətinə nəzarət edərkən postlarda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliəsi, stolüstü oyunların oynanılması da diqqət mərkəzində saxlanılır.

Baş leytenant E.Quliyev qeyd etdi ki, keçirilən təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən şəxsi heyət postda xidmət apararkən daha ayıq-sayıq, çevik olur, tapşırılmış obyektin mühafizəsini qüsursuz yerinə yetirir.



Komendant bölüyündə xidmətin təşkilində, hərbi qulluqçuların xidmətə hazırlanmasında, qarovulun yoxlanılmasında bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Malik Bəbirovun yaxından iştirak etdiyini deyən baş leytenant E.Quliyev onun bacarıqlı və çalışqan zabit olduğunu bildirdi.

Baş leytenant E.Quliyev komendant bölüyünün qabaqcıl hərbi qulluqçularından gizir Asim Hudulov, çavuş Baba Sarıyev, baş əsgərlər Sabir Əşrəfov, Murad Mehralıyev, əsgərlər Vüqar İmanov, Talıb Nəzərov, Rüstəm Xudaverdiyev və Ümid Heybətovun adlarını çəkərək, onların yoldaşlarına nümunə olduqlarını qeyd etdi.



**mayor Anar Əhmədov**

3_Layout 1 01.06.2025 23:11 Page 1



# İSTEHKAMÇILARIMIZ İSTƏNİLƏN DÖYÜŞ TAPŞIRIĞINI İCRA ETMƏYƏ QADİRDİRLƏR

Döyüş və müxtəlif əməliyyatlarda mühəndis-istehkam bölmələrindən geniş istifadə olunur.

Daxili Qoşunlarda mühəndis təminatının daha mürəkkəb tapşırıqlarını yerinə yetirmək üçün mütəmadi olaraq şəxsi heyətlə döyüş hazırlığı məşğələləri keçirilir. Daxili Qoşunların Baş İdarəsinin qərargahının mühəndis xidmətinin rəisi polkovnik Baba Əliyev bildirdi ki, mühəndis-istehkamçılar həm döyüş, həm də sülh şəraitində olduqca əhəmiyyətli vəzifələri yerinə yetirirlər: "Onlar qoşunların hərəkəti üçün əlverişli şərait yaradır, qoşun və obyektlərin bütün məhvetmə vasitələrindən müdafiəsinin yüksəldilməsi, eləcə də mühəndis sursatları ilə düşmənin hərəkətini çətinləşdirmək məqsədilə kompleks tədbirlər həyata keçirirlər. İstənilən əməliyyatda qazanılan müvəffəqiyyət bir çox halda mühəndis təminatı üzrə tapşırıqların vaxtında və dəqiq yerinə yetirilməsindən asılıdır. Hər birimiz üzərimizə düşən məsuliyyətin fərqindəyik. Mütəmadi olaraq keçirilən məşğələlər zamanı şəxsi heyətin döyüş vərdişlərinin təkmilləşdirilməsinə çalışırıq".





Mühəndis təminatı tapşırıqlarının yerinə yetirilməsi zamanı hərbi qulluqçuların mənəvi-psixoloji dözümlülüyünün artırılması da əsas məqsədlərdən biridir. Döyüş hazırlığı planına uyğun olaraq mühəndis-istehkam bölmələri vacib döyüş tapşırıqlarının yerinə yetirilməsi üzrə praktiki məşqlərə cəlb olunurlar.



Təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların - partlayıcı maddələrin, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsi istehkamçıların əsas vəzifələridir.

Polkovnik B.Əliyev bütün hərbi hissələrin istehkamçıları ilə ayda 1 dəfə olmaqla ixtisas hazırlığı məşğələlərinin keçirildiyini nəzərimizə çatdırdı. İl ərzində komandanlığın tapşırığına əsasən, istehkamçıların komplektləşdirilməsi məqsədilə, şəxsi keyfiyyətləri nəzərə alınaraq hərbi hissələrdən seçilmiş istehkamçı namizədlərin peşəkarlıq keyfiyyətlərinin təkmilləşdirilməsi üçün ANAMA-nın Göygöl regional təlim-tədris mərkəzində kursa cəlb olunmaları təmin edilir. Bundan əlavə, ildə bir dəfə peşəkarlıqlarının artırılması istiqamətində müəyyən xarici ölkələrə, əsasən Türkiyə Respublikasına ezam olunurlar.

Sözün əsl mənasında bu gün Daxili Qoşunlarda döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusilə fərqlənən mühəndis-istehkamçıların ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlər zamanı xidmətinə, Vətən müharibəsi və antiterror əməliyyatındakı fəaliyyətinə də toxunmaq lazımdır. 44 günlük Vətən müharibəsi zamanı keçidlərin açılması, lokal xarakterli antiterror əməliyyatında qarşıya qoyulan tapşırıqların yüksək səviyyədə təmini bizim istehkamçıların bacarıq və qabiliyyətlərindən xəbər verir. Hazırda işğaldan azad olunmuş ərazilərdə xidmətə çıxan istehkamçılarımız orada blokpostların quraşdırılmasına cəlb olunurlar.

Qeyd edək ki, Vətən müharibəsi zamanı Daxili Qoşunların şəhidlik zirvəsinə ucalan 66 nəfər hərbçisindən 5-i mühəndis-istehkamçıdır. Bunlar gizir Mais Səmədov, baş çavuşlar Elçin Nadirov, Anar Vəlizadə, çavuşlar Emil Fətəliyev və Afər Orucovdur.

**kapitan Nigar Ağayeva**

# ƏŞYA XİDMƏTİ VƏZİFƏLƏRİNİ KEYFİYYƏTLƏ YERİNƏ YETİRİR



Hərbi qulluqçular tərəfindən hərbi geyim formasının düzgün daşınması onların nizam-intizamını və nümunəvi xidmətini şərtləndirən əsas amillərdəndir. Daxili Qoşunların hərbi qulluqçularının bədən ölçülərinə uyğun, keyfiyyətli geyim və əşya əmlakları ilə vaxtında təmin olunması komandanlığın diqqət mərkəzində saxladığı əsas məsələlərdən biridir.

Qeyd edim ki, qoşunların hərbi geyim formasının düzgün daşınması daxili işlər naziri tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının hərbi geyim formasını daşıma Qaydaları" haqqında qərarının tələblərinə əsasən tənzimlənir.

Eyni zamanda hərbi qulluqçuların geyim təminatının lazımi səviyyədə həyata keçirilməsinə aidiyyəti olan vəzifəli şəxslər cavabdehlik daşıyırlar. Bu baxımdan hərbi hissələrin əşya xidməti rəislərinin də üzərinə bir sıra mühüm vəzifələr düşür.

Hərbi İnstitutun maddi-texniki təminat şöbəsinin əşya xidmətinin rəisi mayor Camulla Bəndəliyev qeyd etdi ki, hərbi qulluqçuların əşya əmlakları ilə təminatı şəxsi heyətin siyahı sayına uyğun olaraq tərtib olunan müvafiq hesabat-sifarişlərə əsasən həyata keçirilir. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları, kursantlar isə geyim və yataq əmlakları ilə təminat normasına uyğun olaraq təmin olunurlar.

Mayor C.Bəndəliyev onu da vurğuladı ki, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının və kursantların lazımi əşya-əmlaklarla vaxtında təmin olunmasına xüsusi diqqət yetirilir. Bununla əlaqədar geyimlərin fərdi qaydada bədən ölçülərinə uyğunlaşdırılması, sanitar təmizləmə və digər məsələlər nəzarətdə saxlanılır. Həmçinin bölmələrdə, eləcə də anbarlarda əşya, təsərrüfat ləvazimatlarından, mədəni-maarif vasitələrindən düzgün istifadə olunması, onların qorunub saxlanılması və uçotunun aparılmasına diqqət yetirilir.

Mayor C.Bəndəliyev xidmətin uğurlu təşkilində kargüzar çavuş Sevinc İslamovanın fəaliyyətini müsbət qiymətləndirərək onun da üzərinə böyük məsuliyyətin düşdüyünü sözlərinə əlavə etdi.

Xidmət rəisi camaşırxanada geyimlərin təmizlənməsi, qurudulması, ütülənməsinin müasir standartlara uyğun avadanlıqlarla həyata keçirildiyini də söylədi. Bu işlərə mülki işçilərin cəlb edilməsini olduqca təqdirəlayiq hal kimi qiymətləndirərək, hərbi qulluqçuların bütün səylərini xidmətin yüksək səviyyədə təşkil edilməsinə yönəltdiklərini nəzərimizə çatdırdı.

**kapitan Şahin Cəfərzadə**

*Qazilərimiz*

# VƏTƏNƏ OĞUL BORCUNU SƏDAQƏTLƏ YERİNƏ YETİRƏN DÖYÜŞÇÜ

44 günlük Vətən müharibəsi müasir dövlətçilik və hərb tariximizin zəfər səhifəsidir. Azərbaycan döyüş meydanında işğalçı Ermənistan üzərində şanlı qələbə qazanmaqla haqq-ədaləti və ərazi bütövlüyünü bərpa edib. Rəşadətli ordumuz düşməndən qisas almaq, onu məğlubiyyətə uğratmaq missiyasını ləyaqətlə yerinə yetirib.

Hər bir müharibədə zəfər hünərlə, fədakarlıqla, qan tökərək və can verərək əldə olunur. Yenilməz xalqımız qanlı savaşın ağır yükünü öz üzərinə götürərək çətin sınaqlara sinə gərib. Qeyrətli oğullarımız od-alovlu səngərlərdə ruh yüksəkliyi ilə şəhidlik və qazilik məqamlarına ucalıblar. Onların həyat hekayələri Vətən sevgisi, müqəddəs anda və amala sədaqət örnəyidir.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində iştirak etmiş sabiq hərbi qulluqçusu, istefada olan gizir Əliyev Kərim Əkbər oğlu qazidir. Bu şərəfli adı daşımaq hər döyüşçünün taleyinə yazılmır. O, 1991-ci il iyulun 17-də Qazax rayonunun Kosalar kəndində doğulub. Birinci Qarabağ müharibəsindən sonra, ataşkəs dövründə böyüyərək formalaşmış gənc nəslin nümayəndəsidir.

Əkbər Əliyev və Saidə Zeynalovanın iki oğul övladından yaşca böyüyüdür. Atası hazırda işləmir, anası müəllimdir. Qardaşı Nəsimi isə polis əməkdaşıdır. Ailədə aldığı tərbiyə onun Vətənə və xalqa sədaqətli övlad kimi yetişməsində vacib rol oynayıb.

Kərim Kosalar kəndindəki İsmayıl Şıxlı adına tam orta məktəbin məzunudur. Özünün dediyinə görə, məktəbdə ən çox tarix fənninə maraq göstərib. Şagird olduğu vaxtdan hərbçi peşəsinə rəğbət bəsləyib.

2009-cu ilin oktyabr ayından 2011-ci ilin aprel ayınadək Kərim Müdafiə Nazirliyinin Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Düşmənlə təmas xəttində ön mövqelərin keşiyində dayanıb. Motoatıcı bölükdə manqa komandiri vəzifəsində olub. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək ordu sıralarından tərxis olunub.

2011-2015-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdindəki İnşaat Kollecində təhsil alaraq nəqliyyat vasitələrinin təmiri və servisi ixtisasına yiyələnib.

2012-ci ilin noyabr ayında Kərim öz arzusu ilə DİN-in Daxili Qoşunlarının sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilib. 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin manevr qrupunun atıcısı, manevr və xüsusi vasitələrin tətbiqi qruplarının yarımqrup komandiri vəzifələrinə təyin olunaraq komandanlığın etimadını doğruldub. Xidmət dövründə "gizir" hərbi rütbəsinədək yüksəlib. Döyüş və mənəvi-psixoloji hazırlığı baxımından müsbət cəhətdən fərqlənib. Yarımqrup komandiri kimi tabeliyindəki şəxsi heyətin təlim-tərbiyəsinə məsuliyyətlə yanaşıb. Təqdirəlayiq şəxsi keyfiyyətləri ilə silahdaşlarının hörmətini qazanıb. Komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb.

Ölkəmizdə keçirilmiş bir sıra beynəlxalq əhəmiyyətli tədbirlər, habelə mötəbər idman yarışları, o cümlədən koronavirus pandemiyası, eləcə də Nardaran hadisələri zamanı qarşıya qoyulan tapşırıqları peşəkarcasına icra edərək gərəkli təcrübə də toplayıb.

2013-cü il iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 95 illiyi münasibətilə təşkil olunan hərbi paradda Kərim də iştirak edib. Daxili işlər naziri tərəfindən "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalına layiq görülüb.



17072 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin təlimatçısı kapitan Ramiq Tağızadə, 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri kapitan Vüsal Sadıxov, 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin heyət rəisi gizir Novruz Hüseynov, qazi, istefada olan baş çavuş Zabit Səlimov, Daxili Qoşunların sabiq hərbi qulluqçusu, hazırda digər qurumda xidmət edən baş çavuş Bilal Bayramlı, 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcı-meteomüşahidəçisi, müddətdən artıq xidmətdə olan əsgər Rəsul Aslanov Kərimin xidmət və döyüş yoluna yaxından bələd olduqlarına görə onlara müvafiq suallar ünvanladım. Qazinin silahdaşları bildirdilər ki, Kərim vətənpərvər, peşəsinə sadiq, nüfuza malik, intizamlı, həm özünə, həm də tabeliyindəkilərə tələbkar, yoldaşlıqda etibarlı, qayğıkeş, təhkim olunan silah-sursatın, xüsusi vasitələrin xüsusiyyətlərini mükəmməl bilən, təlim və məşğələlərdə bacarıqlarını inkişaf etdirən, müntəzəm şəkildə savadını artıran, xidmət mənafeyinə heç vaxt xələl gətirməyən hərbi qulluqçu olub.

Müsahiblərimin sözlərinə görə, Daxili Qoşunların hərbi qulluqçusu kimi Kərim istənilən xidməti-döyüş tapşırığının icrasına özünü hazırlayıb, hər bir çətinlik, üzləşdiyi müxtəlif məqamlar onu mənəvi cəhətdən daha da möhkəmləndirib.

2020-ci il sentyabrın 27-də işğal altındakı torpaqlarımızın azadlığı uğrunda başlayan və 44 gün davam edən Vətən müharibəsi Kərimin, həmçinin silahdaşlarının həyatına silinməz iz qoyub. Həmin vaxt Daxili Qoşunların müxtəlif hərbi hissələrinin şəxsi heyəti ön cəbhənin ayrı-ayrı istiqamətlərində döyüş əməliyyatlarında iştirak edib. Hərbi qulluqçularımız müharibənin hər üzünü görüb, onun bütün məşəqqətlərinə mətinliklə dözüblər.

67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin şəxsi heyətinin tərkibində Kərim müharibənin ilk günündən 16077 saylı hərbi hissəyə ezam olunaraq, Bərdə, Ağdam və Tərtər rayonlarının ərazilərində təhlükəsizliyin qorunması məqsədilə komendant postlarında ayıq-sayıq xidmət aparıb.

2020-ci ilin oktyabr ayının ortalarında isə ön cəbhənin Füzuli rayonu istiqamətinə göndərilib. Füzuli, Cəbrayıl, Xocavənd və Xocalı rayonlarının ərazilərində döyüş yolu keçərək torpaqlarımızın müdafiəsində dayanıb, yaşayış məntəqələrinin işğalçılardan təmizlənməsi, düşmənə məxsus silah-sursatın, texnikanın axtarılaraq götürülməsi, hərbi obyektlərin mühafizəsi, ermənilərin diversiya-kəşfiyyat qruplarının mövqelərimizin arxasına sızmasının qarşısının alınması və digər mühüm tapşırıqları yerinə yetirib. Hadrutda başçılıq etdiyi qrupla axtarış apararkən bir neçə nəfər erməni hərbçisini ələ keçirib. Ümumilikdə döyüş bölgəsində qorxmaz, qətiyyətli və çevik hərbi qulluqçu kimi fərqlənib. Təhlükə qarşısında silahdaşlarından öz köməyini əsirgəməyib.



2020-ci il noyabrın 8-də növbəti döyüş tapşırığını yerinə yetirmək üçün Şuşa istiqamətində avtomobillə hərəkət edərkən Xocalı rayonunun Çanaqçı kəndində ermənilərin artilleriya atəşi nəticəsində Kərim başından ağır yaralanıb. Döyüşçüyə ilk tibbi yardım göstərilərək Hadrutdakı tibb məntəqəsinə, oradan isə Füzuli Rayon Mərkəzi Xəstəxanasına təxliyə olunub. O, Bakıda yerləşən Neyrocərrahiyyə Xəstəxanası və Daxili Qoşunların Hərbi Qospitalında stasionar müalicə alıb, üzərində cərrahiyyə əməliyyatı aparılıb. Həkimlər tərəfindən ona "açıq kəllə-beyin travması, sağ təpə nahiyəsinə nüfuz edən odlu silah, kor qəlpə yaralanması nəticəsində baş-beyinin əzilməsi, sol aşağı ətrafın dərin parezi, mərkəzi sinir sistemi funksiyalarının mühüm dərəcədə pozulması" diaqnozu qoyulub. Xəstəlik haqqında şəhadətnamədə hərbi qulluqçunun həm dinc, həm də müharibə dövründə hərbi xidmətə yararsız olduğu barədə qeydlər öz əksini tapıb.

2021-ci ilin mart ayında Kərim səhhəti ilə əlaqədar Daxili Qoşunların sıralarından istefaya buraxılıb. Qaziyə I dərəcəli əlil olaraq müvafiq pensiya təyin olunub, dövlət tərəfindən mənzil və avtomobil verilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq Sərəncamı, həmçinin daxili işlər nazirinin 9 mart 2022-ci il tarixli əmri ilə gizir K.Əliyev "Vətən müharibəsi iştirakçısı" və "Şücaətə görə" medalları ilə təltif edilib.

Kərim öz nəslində yeganə qazidir, ailəsi, el-obası onunla qürur duyurlar. Gülnar xanımla evli olan qazinin Fidan adlı məktəbli qızı var. Paytaxtın Hövsan qəsəbəsində inşa olunmuş yeni kompleksdəki binada yaşayan Kərim səhhəti ilə əlaqədar işləmir, davamlı şəkildə tibbi reabilitasiya kursu keçir.

Qalib döyüşçü kimi o, Vətənə oğul borcunu sədaqətlə yerinə yetirib, bu amil həyatda alnıaçıq, üzüağ və ləyaqətlə yaşamaq deməkdir.

**Yalçın Abbasov**

## ŞƏXSİ HEYƏTİN NORMAYA UYĞUN KEYFİYYƏTLİ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunların komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlıqlarının qorunması və səhhətlərinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

17074 saylı hərbi hissə komandirinin maddi-texniki təminat üzrə müavini polkovnik-leytenant Seymur Qarayev şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlıqlarının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.





Komandir müavini şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Xüsusilə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə şəxsi heyətə soğan, sarımsaq kimi faydalı tərəvəzlər verilir.

Polkovnik-leytenant S.Qarayev görülən işlərdə təminat bölüyünün təminat taqımının yeməkxana rəisi baş gizir Qardaşxan Ağakişiyevin zəhmətini xüsusilə vurğuladı. Onun öz vəzifələrinin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında aşpaz-işçilərdən Xanım Canayeva, Pirdas Kekalova, Xacay Qiriyeva və Mikayıl Muradovun fəaliyyətini müsbət xarakterizə etdi. Həmçinin qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı aşpazlardan əsgərlər Mehti Dəmirov və Əli Əmirovun adlarını çəkdi.

**17074 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

*İdman*

## ƏZMKARLIQ, İRADƏ VƏ İDMANÇI LƏYAQƏTİ

Daxili Qoşunların İdman komandasının nümunəvi hərbi qulluqçularından biri olan gizir Vüsal Gözəlov artıq 18 ildir ki, sıralarımızda xidmət edir. Hələ uşaqlıq illərindən bütün qəlbilə idmana bağlanan, bu yolda sözün əsl mənasında hər cür çətinliyə sinə gərən silahdaşımız hazırda çəkdiyi zəhmətin bəhrəsini görür.

O, 1984-cü il sentyabrın 25-də Xocavənd rayonunun Kuropatkino kəndində doğulub. Orta təhsillidir. 2002-2004-cü illərdə Xüsusi Dövlət Mühafizə Xidmətində müddətli həqiqi hərbi xidmətdə olub. Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə 2007-ci ildən 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində başlayıb. Hazırda İdman komandasında təlimatçısı vəzifəsindədir.

Hələ 6-7 yaşlarından boksla məşğul olan Vüsal 10 yaşında ilk qələbəsini qazanaraq Bakı çempionu adına layiq görülüb. İdmanı çox sevən, bu sahədə daim öz hazırlığını təkmilləşdirən hərbi qulluqçu dəfələrlə "A" kateqoriyalı beynəlxalq turnirlərə qatılaraq, qalib və mükafatçı kimi Daxili İşlər Nazirliyini layiqincə təmsil edib. Vaxtilə peşəkar boksçu kimi yarışlarda respublika çempionu və dəfələrlə beynəlxalq turnirlərin mükafatçısı adını qazanan silahdaşımız 2015-ci il dekabrın 8-də boks idman növü üzrə Azərbaycan Respublikasının "İdman ustası" dərəcəsinə, 2019-cu ilin fevral ayının 25-də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin qərarı ilə boks idman növü üzrə




"Azərbaycan Respublikasının əməkdar məşqçisi" fəxri adına layiq görülüb. Bu uğurlarının davamı olaraq isə cari ildə "İlin ən yaxşı məşqçisi" adını qazanıb.

Xidmət etdiyi ötən müddət ərzində nümunəviliyi, intizamı və özünə qarşı tələbkarlığı ilə seçilən gizir V.Gözəlov hər zaman Daxili Qoşunların idman şərəfini yüksək səviyyədə qoruyub, qazandığı nailiyyətləri ilə şəxsi heyətə örnək olub.

İdmançı hərbi qulluqçumuza bundan sonrakı fəaliyyətində də yeni-yeni uğurlar arzulayırıq.

**kapitan Nigar Ağayeva**

## KOMENDANT TAQIMININ SAYIQ, İNTİZAMLI ƏSGƏRİ

Hərbi İnstitutun komendant taqımının intizamı, layiqli xidmətilə seçilən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından biri də əsgər Səməd Məmmədovdur. Komendant taqımının komandiri leytenant Ramal Yunisov tərəfindən müsbət xarakterizə olunan əsgərimiz qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.

Əsgər S.Məmmədov 2004-cü il yanvarın 17-də Gəncə şəhərində anadan olub. 2009-2020-ci illərdə doğma şəhərində yerləşən Nizami Gəncəvi adına 11 nömrəli tam orta məktəbdə təhsil alıb. 2020-2024-cü illərdə Azərbaycan Dövlət Aqrar Universitetində aqronomluq ixtisasına yiyələnib. Uşaq yaşlarından idmanın boks növü ilə məşğul olub.



2024-cü ilin iyul ayında 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Hal-hazırda isə xidmətini Hərbi İnstitutun komendant taqımının atıcısı vəzifəsində layiqincə davam etdirir. O, daim öz üzərində çalışır, özünə qarşı tələbkardır. Xidmətə ciddi münasibətilə seçilir. Hərbi xidmətə həvəsi, əzmkarlığı ilə yanaşı, lazım olduqda əsgər yoldaşlarına da köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir.

Daxili Qoşunlarda xidmətilə fəxr edən əsgər S.Məmmədov hər bir gəncin Vətənə olan borcunu layiqincə qaytarmasının, komandirlər tərəfindən qarşıya qoyulan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinin vacibliyini vurğuladı.

**Hərbi İnstitutun ştatdankənar müxbir postu**

*NÜMUNƏVİ XİDMƏT*

## XİDMƏTİ VƏZİFƏLƏRİNİN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLƏN QADIN HƏRBİ QULLUQÇU

64412 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçularından olan baş çavuş Gülşən Əliyeva uzun müddətdir sıralarımızda layiqincə xidmət edir. O, 1991-ci il sentyabrın 22-də Bakı şəhərində anadan olub. Orta təhsilini 1998-2009-cu illərdə Bakı şəhərinin Nizami rayonunda yerləşən 70 nömrəli pilot lisey məktəbində alıb. 2009-2011-ci illərdə Vidadi Ağayev adına 7 nömrəli peşə liseyində mühasib-fərdi kompyuter operatoru ixtisasına yiyələnib.

Hələ məktəb illərindən hərbi formaya rəğbəti olan Gülşən müstəqil həyata qədəm qoyduqdan sonra ömrünü hərbi xidmətə həsr etməyə qərar verir. Belə ki, 2011-ci ildə Daxili Qoşunların komandanlığına xidmətə qəbulla bağlı etdiyi müraciət uğurlu olur. O, 64412 saylı hərbi hissənin silah anbarlarının məsul icraçısı vəzifəsinə təyin edilir. Artıq 14 ildir ki, həmin vəzifəni məsuliyyətlə icra edir.

Nümunəvi xidməti, bilik və bacarığı ilə fərqlənən qadın hərbi qulluqçumuz hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Hərbi hissə komandiri polkovnik-leytenant Telman Əliyev onun haqqında danışarkən bildirdi ki, baş çavuş G.Əliyeva xidməti-vəzifə borclarının icrasına ləyaqətlə yanaşır, sənədlərin qəbulu, dövriyyəsi və qorunub saxlanılmasına hər zaman ciddi nəzarət edir. Həmçinin daxil olan sənədlərin icrası ilə bağlı daxili qoşunlar komandanının müvafiq direktivinin və digər rəhbəredici sənədlərin tələblərini bilir.



Hərbi xidmətin bütün çətinliklərinə baxmayaraq, döyüş hazırlığının qorunub saxlanılması üçün bütün qüvvəsini səfərbər edən və yoldaşlarına nümunə olmağı bacaran hərbi qulluqçumuz şəxsi məsuliyyət hissinin onun üçün önəmli olduğunu vurğulayaraq, Daxili Qoşunların sıralarında xidmət etməkdən hər zaman qürur duyduğunu bildirdi.

**kapitan Nigar Ağayeva**

## VƏTƏN MÜHARİBƏSİ İŞTİRAKÇISI, BACARIQLI SÜRÜCÜ

17071 saylı hərbi hissənin nümunəvi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından biri əsgər Sübhan Nuriyevdir. O, layiqli xidməti, intizamı ilə yoldaşlarına örnəkdir.

Hərbi qulluqçumuz 2002-ci ilin may ayının 29-da Saatlı rayonunun Mircəlal kəndində anadan olub. Doğulub boya-başa çatdığı kənddə yerləşən Tofiq İsmayılov adına tam orta məktəbdə təhsil alıb. 2019-cu ildə məktəbi bitirib. 2020-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2022-ci ilin yanvar ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət keçib.

2022-ci ilin aprel ayından Daxili Qoşunların sıralarındadır. 17071 saylı hərbi hissədə müxtəlif vəzifələrin öhdəsindən layiqincə gəlib. Hazırda xüsusi vasitələrin tətbiqi dəstəsinin götürmə qrupunun sürücü-atıcısı vəzifəsində xidmətini davam etdirir. Bölmə komandiri tərəfindən müsbət xarakterizə olunur.



Əzmkarlığı ilə seçilir, qoyulan tapşırıqları keyfiyyətlə icra edir. Təhkim olunan avtomobilin texniki xüsusiyyətlərini bilir, nasazlıqlar olduqda dərhal onları aradan qaldırır.

Əsgər S.Nuriyev həm də Vətən müharibəsi iştirakçısıdır. Füzuli rayonu və Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında cəsarətlə vuruşub. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanının müvafiq Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" və Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Sərəncamına əsasən, "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib.

**kapitan Xədicə Hacızadə**

*Sağlamlıq*

### C vitamini qan təzyiqini aşağı salmağa kömək edir




İmmun sistemini gücləndirməkdə və soyuqdəymə ilə mübarizədə böyük rolu olan C vitamininin qan təzyiqinə nəzarət üçün də əhəmiyyətli faydaları məlum olub.

Son tədqiqatlar C vitamininin həm sağlam, həm də hipertansiyonlu insanlarda qan təzyiqini aşağı salmağa kömək etdiyini aşkarlayıb. Bunu çoxsaylı araşdırmanın nəticələrini birləşdirən metaanaliz müəyyən edib. Tədqiqat, həmçinin sübut edir ki, C vitamini qan damarlarının genişlənməsinin qarşısını almağa kömək edə bilər. Bu, sağlam qan təzyiqi səviyyələrini saxlamaq üçün xüsusilə faydalıdır.

### Yuxu problemini aradan qaldırmaq üçün ən təsirli meyvə - ananas

Ananas karbohidrat, zülal, yağ və lif ehtiva edən balanslaşdırılmış bir meyvədir. 1 dilimi (50 qram) 25 kalori, 1 ədədi (905 qram) isə 453 kaloridir.

Son araşdırmalar nəticəsində məlum olub ki, sağlam yatmaq və yuxu problemini aradan qaldırmaq üçün ananas ən təsirli və faydalı meyvədir. Bu meyvə yatmazdan əvvəl yeyildikdə yuxu proseşinə yardımçı olur. Ananas yuxu problemləri üçün möcüzəvi qida sayılır.



Bundan əlavə, ananas tərkibindəki antioksidantlar sayəsində bədəndəki infeksiyaları azaltmağa kömək edir. Ananasın tərkibindəki bromelain fermenti ağrıları azaltmağa və iltihabın qarşısını almağa yardımçı olur.

**AZƏRTAC**

## HƏRBİ XƏBƏRLƏR - YENİLİKLƏR -

### Sloveniya Fransadan CAESAR özüyeriyən artilleriya qurğuları alır

Sloveniya Müdafiə Nazirliyi Fransadan 12 ədəd 155 mm-lik CAESAR özüyeriyən artilleriya qurğusunun (ÖAQ) alınması ilə bağlı sifarişi təsdiqləyib. "Poliqon" Sloveniya Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, sifarişin dəyəri təxminən 87 milyon avro təşkil edir.

Sifariş çərçivəsində avadanlıq və xidmətlərin iki partiya şəklində 2028-ci ilə qədər çatdırılması planlaşdırılır. Sözügedən sifarişə CAESAR ÖAQ-larla yanaşı, kəşfiyyat və "Atlas" artilleriya informasiya sistemləri də daxildir.



Bundan əlavə, Sloveniya Müdafiə Nazirliyi tərəfindən sonradan daha altı ədəd CAESAR özüyeriyən artilleriya qurğusu sifariş ediləcək ki, onlar da 2030-cu ilə qədər tədarük olunacaq.

## Allah rəhmət eləsin

16076 saylı hərbi hissənin komandanlığı gizir Orxan Babayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**